**Laura Zərbəliyeva**
*Azərbaycan Dillər Universiteti*

**10.30546/2518-752X.1.601.074**

# SÜNİ İNTELLEKTİN XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ TƏTBİQİ: *ChatGPT* ÇATBOTUNUN KÖMƏYİLƏ İNDONEZİYA DİLİ ÜZRƏ TƏDRİS MATERİALININ HAZIRLANMASI YOLLARI

***Açar sözlər:*** *süni intellekt, ChatGPT çatbotu, xarici dillərin tədrisi, tədris materialı, İndoneziya dili*

***Keywords:*** *artificial intelligence, ChatGPT, foreign language teaching, teaching material, the Indonesian language*

***Ключевые слова:*** *искусственный интеллект, чат-бот ChatGPT, обучение иностранным языкам, учебные материалы, индонезийский язык*

**Giriş.** Süni intellekt sürətlə inkişaf edir və tədricən həyatımızın bütün sahələrinə, o cümlədən təhsil sisteminə daxil olmağa başlayır. Süni intellekt vasitələrindən xarici dillərin tədrisində də səmərəli və yaradıcı şəkildə istifadə etmək olar. Bu vasitələrdən biri – *ChatGPT* çatbotu təhsilalanların dil səviyyəsinə uyğun olaraq müxtəlif dil bacarıqları üzrə tədris materialı hazırlamaq potensialına malikdir. Mükəmməl texniki bacarıqlara malik olmadan belə, müəllim *ChatGPT* çatbotuna daxil etdiyi verilənlər əsasında çox qısa müddət ərzində müxtəlif növ tapşırıqlar tərtib edə bilər. Bu çatbotu müəyyən mənada müəllimin virtual köməkçisi kimi qiymətləndirmək olar.

İndoneziya dilinin əcnəbilərə tədrisi genişləndikcə tədris prosesinə texnologiyanın inteqrasiyası vacib şərtə çevrilmişdir. Bu məqalədə İndoneziya dilinin tədrisində *ChatGPT* çatbotunun mümkün tətbiqi yollarından bəhs edilir. Tədris materialının hazırlanması üçün burada GPT-4 dil modelinin optimallaşdırılmış turbo versiyası əsasında işləyən *ChatGPT* modelinin ödənişsiz versiyasından istifadə olunmuşdur.

## 1. *ChatGPT* çatbotu

*ChatGPT* çatbotu – söhbət robotu və ya süni intellekt robotunun ilk versiyası 2018-ci ildə hazırlanmışdır. O, 2022-ci ildə ictimaiyyətə təqdim edildikdən sonra sürətlə ən çox istifadə olunan süni intellekt vasitəsinə çevrilmişdir. Sonrakı illərdə bir sıra təkmilləşdirmələrdən sonra, o, dəqiq məlumat təqdim edə və müxtəlif əmrlər yerinə yetirə bilmə qabiliyyətinə görə daha da populyarlaşmışdır [1].

Bu çatbot akademik mühitdə ondan sui-istifadə edilə, tənqidi düçüncənin inkişafına mane ola və təhsilalanların tənbəlləşə bilməsi səbəbindən tez-tez tənqidlərə məruz qalır. Noam Xomski onu hətta "yüksək texnologiya plagiatı"nın bir növü adlandırmışdır [3]. Təhsil müəssisələrində onun qadağan olunması və ya elektron cihazlardan istifadə olunmasına icazə verilməməsi üçün təkliflər də edilir.

Məsələn, 2023-cü ilin əvvələrində Nyu-Yorkda dövlət məktəblərində *ChatGPT* çatbotunun bütün cihazlarda istifadəsinin qadağan edilməsi qərarı verilmişdi. Bunun ardınca onun yaradıcısı Open Aİ tədqiqat təşkilatı bu məsələyə münasibət bildirərək hər hansı mətnin bu çatbot vasitəsilə hazırlanıb-hazırlanmadığını müəyyənləşdirmək məqsədilə artıq bir sıra addımların atıldığını bildirmişdi [2].

*ChatGPT* çatbotu geniş imkanlara malikdir. O, suallara cavab vermək, elmi məqalə və şeir yazmaq, tərcümə etmək, cümləni parafraz etmək, mətni redaktə etmək, eləcə də xülasə hazırlamaq, şəkil yaratmaq, diaqram tərtib etmək kimi işlər görə bilir. Onun əsalandığı alqoritm milyardlarla məqaləyə istinad edir.

*ChatGPT* çatbotunun daha bir üstünlüyü onun müxtəlif dilləri dəstəkləyə bilmək bacarığıdır. O, suahili və benqal dili kimi regional, latın və sanskrit kimi klassik, esperanto və klinqon kimi süni dillər də daxil olmaqla yüzlərlə dildə ünsiyyətə girə və bu dillərdə mətn hazırlaya bilir. Geniş yayılmış dillərdə bu çatbot öz işini daha yaxşı icra edir. Digər dillərdə isə onun verdiyi informasiya qənaətbəxş olmaya bilər [4]. *ChatGPT* çatbotu bu dillərdə nəzakətlə danışır, müəyyən əmri yerinə yetirə bilmədiyi halda hətta üzr istəyir və istifadəçini başqa platformalara yönəldir.

Bu çatbotun işləmə mexanizmi aşağıdakı kimidir. Müəyyən məlumat əldə etmək üçün verilmiş pəncərədə ona müvafiq sualla müraciət edilir. Məlumatın qənaətbəxş olmasına nail olmaq üçün çatbotla dialoqa girərək ondan daha dolğun məlumat xahiş edilə bilər. Bunun üçün bir neçə açar söz daxil etmək də kifayətdir. Orfoqrafik səhvlər belə, çatbotun lazımi qaydada işləməsinə mane olmur. *ChatGPT* istifadəçisi bu platformada hesaba malik olduğu və vaxtaşırı çatbota müraciət etdiyi halda çatbot istifadəçisi barədə müəyyən məlumata sahib olur, yəni onu müəyyən qədər "tanıyır". Bu səbəbdən o, istifadəçisinə fərdi yanaşaraq ona daha uyğun məlumat təqdim edə bilir.

## 2. *ChatGPT* çatbotu tədris materialının hazırlanması vasitəsi kimi

İndoneziya dili üzrə kifayət qədər nəşr olunmuş və rəqəmsal formatda tədris materialı vardır. Bununla belə, təqdim edilmiş material dil öyrənənlərin ehtiyaclarını ödəyə bilmədiyi halda müəllim yeni material hazırlamalı olur, bu işə isə çox vaxt və əmək sərf etməli olur. Bu zaman problemin həlli üçün çatbotdan istifadə edilə bilər. Onun üstünlüklərindən biri internet istifadəçisi olan hər bir müəllim üçün əlçatan olmasıdır. Bu çatbot tələb olunan formatda müxtəlif dil bacarıqları üzrə bir neçə saniyə ərzində tədris materialı hazırlamaq qabiliyyətinə malikdir.

*ChatGPT* vasitəsilə hazırlanmış dərs tapşırıqları nümunələrini nəzərdən keçirək. Çatbota əvvəlcə tapşırığın hansi dil səviyyəsi üçün, hansı dil bacarığı üzrə və hansı formatda hazırlanması bildirilir. Bu komandalar istənilən dildə verilə bilər. Bu məqalədə təqdim edilmiş bütün tapşırıqlar İndoneziya dilində verilmiş komandalar əsasında tərtib edilmişdir.

**Qrammatika üzrə tapşırıq hazırlamaq üçün verilmiş komanda:** *Buatkan tugas melengkapi kalimat untuk tingkat pemula*, *berdasarkan awalan meN-*! ('Başlanğıc dil səviyyəsi üçün *meN-* prefiksi əsasında cümlələrdə boşluqları tamamlamaqla yerinə yetirilə biləcək tapşırıq hazırla!'):

1. Ibu sedang __________ (masak) sayur di dapur. 2. Ayah __________ (baca) koran setiap pagi. 3. Siti __________ (tulis) surat untuk nenek. 4. Adik __________ **(bawa)** tas ke sekolah. 5. Kakak __________ (sapu) halaman rumah.

6. Guru __________ (panggil) siswa ke depan kelas. 7. Petani __________ (tanam) padi di sawah. 8. Dita __________ (buka) jendela setiap pagi. 9. Budi __________ (lempar) bola ke temannya. 10. Kami suka __________ (tonton) film di akhir pekan.

Bu tapşırıqda mötərizədə verilmiş sözə *meN-* prefiksinin lazımi variantını artırmaqla feil əmələ gətirmək tələb olunur. Tapşırıqda işlədilmiş sözlər və cümlələrin quruluşu başlanğıc dil səviyyəsinə uyğundur. Lakin çatbot *meN-* prefiksinin bütün formalarını işlətmək üçün kifayət qədər nümunələr verməmişdir. O, bu prefiksin altı variantından yalnız dordünün istifadə edilə biləcəyi cümlələr təqdim etmişdir. İstədiyimiz nəticəni əldə etmək üçün ona yeni komanda ilə müraciət edə bilərik. Məsələn, *Buatkan tugas melengkapi kalimat untuk tingkat pemula*, *berdasarkan semua variasi awalan meN-*! ('Başlanğıc dil səviyyəsi üçün *meN-* prefiksinin bütün variantları əsasında cümlələrdə boşluqları tamamlamaqla yerinə yetirilə bilən tapşırıq hazırla!').

**Leksika üzrə tapşırıq hazırlamaq üçün verilmiş komanda:** *Susunlah daftar berisi 10 kata yang berkaitan dengan pariwisata*! ('Turizmlə bağlı 10 sözdən ibarət siyahı tərtib et!'). Çatbotun ilk siyahıda təqdim etdiyi sözlərin bir qismi o qədər də işlək olmadığından ondan həmin sözləri daha işlək sözlərlə əvəz etməyi xahiş etdik və nəticədə turizmlə bağlı aşağıdakı siyahını əldə etdik:

| | |
|---|---|
| 1) *wisata* | 6) *hotel* |
| 2) *wisatawan* | 7) *transportasi* |
| 3) *perjalanan* | 8) *paket wisata* |
| 4) *destinasi* | 9) *objek wisata* |
| 5) *tiket* | 10) *pemandu wisata* |

Daha sonra bu siyahı əsasında tapşırıq hazırlamaq üçün növbəti komanda verdik: *Buatkan tugas mencocokkan 10 kata berikut dengan definisinya untuk tingkat pemula*! ('Verilmiş 10 sözlə onların izahını uyğunlaşdırmaq üçün başlanğıc dil səviyyəsi üzrə tapşırıq hazırla!'):

| | |
|---|---|
| 1) *wisata*, | a) *kegiatan atau aktivitas berkunjung ke tempat wisata*, |
| 2) *wisatawan*, | b) *orang yang pergi ke tempat wisata*, |
| 3) *perjalanan*, | c) *proses berpindah dari satu tempat ke tempat lain*, |
| 4) *destinasi*, | d*) tempat yang dituju dalam suatu perjalanan wisata*, |
| 5) *tiket*, | e) *dokumen untuk masuk ke tempat wisata atau naik transportasi*, |
| 6) *hotel*, | f) *tempat menginap selama berlibur*, |
| 7) *transportasi*, | g) *alat untuk berpindah dari satu tempat ke tempat lain*, |
| 8) *paket wisata*, | h) *rencana perjalanan wisata yang sudah disusun sebelumnya*, |
| 9) *objek wisata*, | i) *tempat atau objek yang menarik bagi wisatawan*, |
| 10) *pemandu wisata*, | j) *orang yang memandu wisatawan selama perjalanan*. |

Eyni siyahı əsasında orta dil səviyyəsi üzrə tapşırıq hazırlamaq lazım gələrsə, sadəcə dil səviyyəsini qeyd etməklə əvvəlki komandanı təkrar etmək olar: *Buatkan tugas mencocokkan 10 kata berikut dengan definisinya untuk tingkat madya*! ('Verilmiş 10 sözlə onların təriflni uyğunlaşdırmaq üçün orta dil səviyyəsi üzrə tapşırıq hazırla!'):

| | |
|---|---|
| 1. *wisata*, | a) *kegiatan bepergian ke suatu tempat untuk rekreasi, hiburan, atau tujuan budaya*, |
| 2. *wisatawan*, | b) *individu yang melakukan perjalanan untuk tujuan berlibur, berwisata, atau rekreasi*, |
| 3. *perjalanan*, | c) *kegiatan berpindah dari satu tempat ke tempat lain, baik untuk liburan maupun keperluan lain*, |
| 4. *destinasi*, | d) *tempat tujuan yang ingin dikunjungi dalam sebuah perjalanan wisata* |
| 5. *tiket*, | e) *bukti resmi yang digunakan untuk masuk ke suatu tempat atau menggunakan jasa transportasi*, |
| 6. *hotel*, | f) *bangunan yang menyediakan jasa penginapan, makan, dan layanan lain untuk wisatawan atau pelancong*, |
| 7. *transportasi*, | g) *sarana atau alat untuk memindahkan orang atau barang dari satu lokasi ke lokasi lain*, |
| 8. *paket wisata*, | h) *penawaran perjalanan yang sudah mencakup berbagai layanan seperti transportasi, akomodasi, kunjungan objek wisata*, |
| 9. *objek wisata*, | i) *tempat atau hal yang menjadi daya tarik untuk dikunjungi oleh wisatawan*, |
| 10. *pemandu wisata.* | j) *orang yang memberikan penjelasan, informasi, serta memandu wisatawan selama perjalanan.* |

Başlanğıc və orta dil səviyyəsi üçün təqdim edilmiş bu tapşırıqlar arasında fərqlər aydın şəkildə nəzərə çarpır. Başlanğıc dil səviyyəsi üzrə tapşırıqda sözlərin izahı sadə və qısadır. Burada gündəlik həyatda işlənən və *tempat*, *orang* kimi ümumi sözlərdən istifadə olunmuşdur. Orta dil səviyyəsi üzrə tapşırıqda isə sözlərin izahı daha mürəkkəb, həmin sözlərin köməyilə qurulmuş cümlələr daha uzundur. Bundan başqa cümlələrdə rəsmi üsluba üstünlük verilmiş, daha dəqiq və spesifik sözlər seçilmişdir.

**Oxu bacarığı üzrə tapşırıq hazırlamaq üçün verilmiş komanda:** *Buatkan teks tentang pariwisata untuk tingkat pemula*! ('Başlanğıc dil səviyyəsi üçün turizmlə bağlı mətn hazırla!'):

*Liburan ke Bali*

*Minggu lalu, saya dan keluarga pergi ke Bali. Kami naik pesawat dari Jakarta. Di Bali, kami menginap di hotel dekat pantai. Setiap pagi, kami berjalan-jalan di pantai dan melihat matahari terbit. Kami juga mengunjungi Pura Tanah Lot dan makan makanan khas Bali. Liburan di Bali sangat menyenangkan.*

Yuxarıdakı qısa mətni əldə etdikdən sonra növbəti komanda verilir: *Buatkan tugas pilihan ganda untuk tingkat pemula*, *berdasarkan teks* "*Liburan ke Bali*"!

(‘“Balidə tətil” mətni əsasında başlanğıc dil səviyyəsi üçün çoxvariantlı tapşırıq hazırla!’):

1. *Kapan penulis pergi ke Bali*?
a) *kemarin*,
b) *minggu lalu*,
c) *besok*,
d) *dua minggu lagi*,
2. *Siapa yang pergi bersama penulis*?
a) *teman*,
b) *guru*,
c) *keluarga*,
d) *sendiri*,
3. *Bagaimana cara penulis pergi ke Bali?*
a) *dengan mobil*,
b) *dengan kapal*,
c) *dengan kereta*,
d) *dengan pesawat*,
4. *Di mana penulis menginap*?
a) *di rumah teman*,
b) *di vila*,
c) *di hotel dekat pantai*,
d) *di penginapan murah*,
5. *Tempat wisata apa yang dikunjungi penulis di Bali*?
a) *Pantai Kuta*,
b) *Pura Tanah Lot*,
c) *Danau Toba*,
d) *Taman Safari*.

Çatbotun yaratdığı mətndəki sözlər və cümlələrin quruluşu başlanğıc dil səviyyəsinə uyğundur. Mətn qısa olmasına baxmayaraq, tətil barədə kifayət qədər və maraqlı məlumat ehtiva edir. Mətnin əsasında tərtib edilmiş tapşırıq da onu tam əhatə edir.

**Şifahi nitq bacarığı üzrə tapşırıq hazırlamaq üçün verilmiş komanda:** *Buatkan tugas berbicara untuk tingkat pemula tentang pariwisata*! (‘Başlanğıc dil səviyyəsi üçün turizmlə bağlı şifahi nitq materialı hazırla!’)

Çatbotun təqdim etdiyi tapşırıqda aşağıdakılar təklif olunur: *Bicaralah selama 1–2 menit tentang satu tempat wisata yang kamu sukai atau ingin kunjungi*! (‘Xoşladığın və ya ziyarət etmək istədiyin görməli yer haqqında 1-2 dəqiqəlik çıxış hazırla!’).

*Hal yang perlu kamu ceritakan* (‘Aşağıdakı məsələləri əhatə et’):
1) nama tempat wisata (‘görməli yerin adı’),
2) lokasinya di mana (‘onun yerləşdiyi yer’),
3) apa yang menarik dari tempat itu (‘orada maraqlı nə vardır?’),
4) apa yang bisa dilakukan di sana (‘orada nə edə bilərsiniz?’),
5) mengapa kamu suka tempat itu (oranı niyə xoşladığını izah et).

***Contoh*** **(‘nümunə’):**

*Tempat wisata favorit saya adalah Danau Toba. Danau Toba ada di Sumatra Utara. Danau ini sangat besar dan indah. Di tengah danau ada Pulau*

*Samosir. Saya ingin naik perahu dan melihat pemandangan. Saya suka Danau Toba karena alamnya cantik dan udaranya sejuk.*

**Dinləmə bacarığı üzrə tapşırıq hazırlamaq üçün verilmiş komanda:** *Buatkan tugas simakan untuk tingkat pemula tentang pariwisata*! (‘Başlanğıc dil səviyyəsi üçün turizmlə bağlı dinləmə materialı hazırla!’).

Çatbot aşağıdakı dinləmə materialını və ona aid sualları təqdim etmişdir**:**

*Pada liburan sekolah, saya pergi ke Yogyakarta. Saya naik kereta api bersama keluarga. Di sana, saya mengunjungi Candi Prambanan. Candi itu sangat besar dan indah. Saya juga membeli oleh-oleh di Malioboro. Liburan di Yogyakarta sangat menyenangkan.*

1. *Ke mana penutur pergi saat liburan*?
2. *Dengan siapa penutur pergi*?
3. *Naik apa penutur ke Yogyakarta*?
4. *Tempat wisata apa yang dikunjungi penutur*?
5. *Apa yang dibeli penutur di Malioboro*?

Daha sonra çatbot yuxarıdakı mətn əsasında audiofayl hazırlamağı təklif etmişdir. Bu təkliflə razılaşsaq da, o, bu xidmətin hazırda mümkün olmadığını söyləmiş və bu işi icra etmək üçün bizi başqa platformalara yönəltmişdir.

Çatbotun yaratdığı dinləmə materialındakı sözlərin və cümlələrin quruluşu başlanğıc dil səviyyəsinə uyğundur. Verilmiş suallar da mətni tam əhatə edir.

**Yazı bacarığı üzrə tapşırıq hazırlamaq üçün verilmiş komanda:** *Buatkan tugas menulis untuk tingkat pemula tentang pariwisata*! (‘Başlanğıc dil səviyyəsi üçün turizmlə bağlı yazı bacarığı üzrə tapşırıq hazırla!’)

Çatbot aşağıdakı tapşırığı təqdim etmiş və turizmlə bağlı bir inşa nümunəsi vermişdir: *Pilih satu tempat wisata di Indonesia yang kalian suka atau ingin kunjungi*! (İndoneziyada xoşladığınız və ziyarət etmək istədiyiniz görməli bir yer seçin!’):

*Bali adalah salah satu tempat wisata terkenal di Indonesia. Bali terletak di pulau Bali. Tempat ini dikenal dengan pantainya yang indah, seperti Pantai Kuta dan Pantai Sanur. Banyak wisatawan datang ke Bali untuk berlibur, berselancar, atau menikmati pemandangan matahari terbenam. Selain itu, Bali juga terkenal dengan budaya dan tradisi yang unik. Banyak orang suka mengunjungi Bali karena suasana yang tenang dan pemandangan alam yang menakjubkan.*

Yuxarıdakılardan belə nəticəyə gəlmək olar ki, müəllim çatbotun təqdim etdiyi materiala tənqidi yanaşmalı, materialın dilöyrənənlərin ehtiyaclarını ödəyib-ödəmədiyinə əmin olmalı, verilmiş məlumatın etibarlılığını yoxlamalıdır.

### 3. *ChatGPT* çatbotunun köməyilə qiymətləndirmə aparılması

*ChatGPT* yalnız tapşırıqların hazırlanmasında deyil, onların yerinə yetirdiyi işlərin nəticəsini qiymətləndirməkdə də kömək edə bilir. Əvvəlki bölmədə verilmiş tapşırıqların hər birinin *ChatGPT* çatbotunda qiymətləndirilməsini aparmışdıq. O, tapşırıqlarda bilərəkdən buraxdığımız səhvləri dərhal müəyyən edə bilmiş, işi uyğun balla qiymətləndirmişdi.

Bundan başqa, İndoneziya dilini öyrənən bir tələbənin turizmlə bağlı qısa yazısının *ChatGPT* çatbotunda qiymətləndirilməsini apardıq. Bunun üçün yazını çatbota daxil edərək aşağıdakı komandanı verdik: *Berikan penilaian terhadap tulisan tingkat pemula ini*! (‘Başlanğıc dil səviyyəsi üzrə yazılmış bu inşanı qiymətləndir!’).

Tələbənin yazdığı inşa:

*Liburan terakhir saya adalah ke Perancis. Saya pergi ke sana bersama keluarga saya. Kami pergi ke Perancis dengan pesawat. Kami terbang dengan pesawat selama 10 jam. Sesampainya di bandara, kami pergi ke hotel.*

*Pada hari berikutnya, kami pergi ke Taman Champ de Mars. Taman itu terletak di Avenue Anatole France dan lokasinya dekat dengan Sungai Seine. Taman itu sangat indah. Di sana ada banyak wisatawan dan juga banyak merpati. Kami bisa memberi makan merpati di sana. Setelah itu, kami pergi ke restoran. Di Perancis ada banyak makanan khas, tetapi saya tidak suka makan siput. Karena sudah malam, kami kembali ke hotel.*

*Pada hari kedua, kami pergi ke taman itu lagi karena di daerah taman tersebut terletak Menara Eiffel. Menara itu tinggi dan besar. Menara tersebut dibangun pada tahun 1887 dan memiliki tiga lantai. Tinggi menara itu 330 meter. Saya juga membeli souvenir Menara Eiffel kecil di toko oleh-oleh. Kami juga banyak berfoto di sana.*

*Pada hari terakhir, kami membeli croissant, berjalan-jalan di kota, dan keesokan paginya pergi ke bandara. Saya sangat menikmati tiga hari di sana. Saya suka Perancis.*

Çatbot yazını aşağıdakı kimi redaktə etmişdir:

*Liburan terakhir saya adalah ke Prancis. Saya pergi ke sana bersama keluarga saya. Kami pergi ke Prancis dengan pesawat dan terbang selama 10 jam. Sesampainya di bandara, kami langsung pergi ke hotel.*

*Pada hari berikutnya, kami mengunjungi Taman Champ de Mars. Taman itu terletak di Avenue Anatole France dan lokasinya dekat dengan Sungai Seine. Taman itu sangat indah. Di sana ada banyak wisatawan dan juga banyak merpati. Kami bisa memberi makan merpati di sana. Setelah itu, kami pergi ke restoran. Di Prancis, ada banyak makanan khas, tetapi saya tidak suka makan siput. Karena sudah malam, kami kembali ke hotel.*

*Pada hari kedua, kami pergi ke taman itu lagi karena di daerah taman tersebut terdapat Menara Eiffel. Menara itu tinggi dan besar. Menara tersebut dibangun pada tahun 1887 dan memiliki tiga lantai. Tinggi menara itu adalah 330 meter. Saya juga membeli suvenir Menara Eiffel kecil di toko oleh-oleh. Kami juga banyak berfoto di sana.*

*Pada hari terakhir, kami membeli croissant, berjalan-jalan di kota, dan keesokan paginya pergi ke bandara. Saya sangat menikmati tiga hari di sana. Saya suka Prancis.*

O, yazını aşağıdakı kimi qiymətləndirmişdir:

"Yazıda müəyyən dəyişikliklər etmişəm. İndoneziya dilinin orfoqrafiya qaydalarını rəhbər tutub *Perancis* və *souvenir* sözlərini müvafiq olaraq *Prancis* və *suvenir* sözləri ilə əvəzləmişəm. *Kami pergi ke Prancis dengan pesawat* və *Kami terbang selama 10 jam* cümlələrini birləşdirirək bir cümlə düzəltmiş, fikri daha təbii şəkildə ifadə etmişəm. Daha sonra *terletak Menara Eiffel* ('Eyfel qülləsi yerləşi*r*') ifadəsini *terdapat Menara Eiffel* ('Eyfel qülləsi vardır') ifadəsi ilə əvəz etmişəm.

Başlanğıc dil səviyyəsi üzrə fikirləriniz çox yaxşı və aydın şəkildə ifadə olunmuşdur. Cümlələr ahəngdar və anlaşıqlıdır. Qrammatik səhvlər çox azdır, onlar nəzərdə tutulmuş fikri anlamağa mane olmur. Bəzi sözlərin (məsələn, *taman*)

dəfələrlə təkrar olunmasına ehtiyac yoxdur. Yazı 10 ballıq şkala üzrə 8,5 balla qiymətləndirilə bilər".

Çatbotun tələbənin yazısını obyektiv şəkildə yoxladığını deyə bilərik. O, iradlarını kifayət qədər əsaslandıra bilmişdir. Özünün təqdim etdiyi yazıda da o, orfoqrafiya qaydalarına riayət etmiş, mətni üslubi cəhətdən bir qədər təkmilləşdirmiş, onun ekspressivliyini artırmaq üçün alternativ sözlər təklif etmişdir. Lakin yazının müəllifini tanıdığımız üçün onu bir qədər fərqli şəkildə qiymətləndirərdik. Tələbəyə verilmiş leksik və qrammatik material həcmcə çox olsa da, onun inşada istifadə etdiyi söz ehtiyatı xeyli məhduddur. İnşada mürəkkəb qrammatik konstruksiyalardan da istifadə edilməmişdir.

Tələbənin yuxarıdakı inşasının əl yazısının da eyni komanda ilə qiymətləndirilməsini yoxladıq. Bunun üçün yazının şəklini çəkərək onu çatbota yüklədik. Tələbənin xətti o qədər də səliqəli və anlaşıqlı olmasa da, çatbot onu oxumaqda çətinlik çəkmədən qiymətləndirə bildi. Onun bu yazıya aid söz seçimi, qrammatika və orfoqrafiya ilə bağlı verdiyi şərhlər inşanın elektron variantına verilmiş şərhlərdən o qədər də fərqlənmir. Sadəcə tələbənin əl yazısında bəzi hərflər aydın yazılmadığından (məsələn, ***a*** hərfi ***o*** hərfinə bənzəyir) çatbot bəzi sözlərin səhv yazıldığını hesab etmişdir.

Çatbotdan eyni şəkildə əvvəlki bölmədəki tapşırıqların da əllə yazılmış cavablarının qiymətləndirilməsini xahiş etdik. Bu dəfə də yazı aydın göründüyü üçün qiymətləndirmədə yanlışlıq olmadı. Bu isə onu deməyə əsas verir ki, qiymətləndirmə prosesində müəllim amili vacibdir. *ChatGPT* daxil edilmiş məlumata münasibətdə müxtəlif meyarları nəzərə alsa və qiymətləndirmədə obyektiv davransa belə, bu proses mütləq müəllimin nəzarəti altında aparılmalıdır. Müəllim dilöyrənənin əl yazısını oxumağın öhdəsindən daha yaxşı gələ bilər və ya anlaşılmaz məqamlarda nə yazdığını birbaşa onun özündən öyrənə bilər.

Yuxarıdakı inşanın *ChatGPT* vasitəsilə yazılıb-yazılmadığını müəyyən etmək üçün elə onun özünə müraciət etdik. O, cavabında inşanı insanın yazdığını, lakin bəzi hissələrin *ChatGPT* və ya başqa süni intellekt vasitələrinin köməyilə hazırlandığının mükünlüyünü, bununla belə, bunu sübut edə bilən dəlil olmadığını bildirdi. Bu məsələni tələbəyə bildirdikdə, o, inşasının bəzi hissələrinin redaktəsi üçün çatbota müraciət etdiyini etiraf etdi.

**Nəticə.** Süni intellektin son zamanlar geniş populyarlıq qazanmış vasitəsi olan *ChatGPT* çatbotunun xarici dillərin tədrisinə inteqrasiyası ilə təhsilverənlərin fəaliyyətində yeni dövr başlayır. Xarici dillər üzrə tədris materialının hazırlanmasında onun imkanları olduqca genişdir. Ona görə də müasir müəllim süni intellektin imkanları ilə tanış olmalıdır. Lakin süni intellektin də imkanları hüdudsuz deyildir.

*ChatGPT* çatbotunun üstünlükləri və çatışmazlıqlarını aşağıdakı kimi ümumiləşdirmək olar. O, hər kəs üçün əlçatandır, müəllimin işini yüngülləşdirir, vaxta qənaət etməyə imkan verir, bir çox dillərdə ünsiyyətə girə və verilən komanadaları dəqiq icra edə bilir. Lakin o heç də bütün komandaları, hətta bəzən özünün belə, təklif etdiklərini yerinə yetirə bilmir. Tədris materialının hazırlanması tamamilə onun öhdəliyinə buraxıla bilməz, ona görə də müəllim onun icra etdiyi işlərin nəticəsinə nəzarət etməlidir.

Texnologiya davamlı şəkildə inkişaf etdiyindən gələcəkdə *ChatGPT* çatbotunun və ya ona alternativ vasitələrin təkmilləşdirilərək daha dəqiq işləyəcəyi

mümkündür. *ChatGPT* çatbotunun tədris sahəsində faydası danılmaz olsa da, bu gün süni intellekt vasitələri müəllimi əvəz edə bilməz, sadəcə onun işlərini yüngülləşdirə bilər.

**Ədəbiyyat:**

1. ChatGPT Timeline. https://chatgpt.com/c/6808c13d-9b58-800b-9caf-1969afe1f720
2. New York City Schools Ban AI Chatbot that Writes Essays and Answers Prompts. https://www.theguardian.com/us-news/2023/jan/06/new-york-city-schools-ban-ai-chatbot-chatgpt
3. Stewart, J. Noam Chomsky Says ChatGPT is a Form of "High-Tech Plagiarism". https://mymodernmet.com/noam-chomskychatgpt/#:~:text=Chat GPT%20is%20basically%20high%2Dtech,to%20avoid%20doing%20the%20work
4. Supported Languages Overview. https://chatgpt.com/c/680a8700-00fc-800b-832e-a9e1577ae853

**Laura Zarbaliyeva**

**Summary**

**ARTIFICIAL INTELLIGENCE IN FOREIGN LANGUAGE EDUCATION: TECHNIQUES FOR DEVELOPING TEACHING MATERIALS FOR THE INDONESIAN LANGUAGE USING *ChatGPT***

The integration of ChatGPT – a widely recognized artificial intelligence tool – into foreign language teaching marks the beginning of a new chapter in pedagogical practice. Its ability to generate teaching materials is remarkably extensive. As such, modern educators must familiarize themselves with the vast potential of AI. However, it is essential to acknowledge the inherent limitations of such technologies.

The advantages and disadvantages of the ChatGPT chatbot can be summarized as follows: it is widely accessible, saves educators time, supports multiple languages, and executes prompts with notable accuracy. Nevertheless, it may fail to execute certain prompts, including those that it suggests. Therefore, it cannot be solely relied upon for the preparation of teaching materials. Educators must remain involved in supervising and evaluating the output it generates.

The ongoing development of technology indicates that ChatGPT and similar tools are likely to become more accurate and reliable. The pedagogical benefits of ChatGPT are undeniable, yet it is important to be aware that while AI can be highly supportive, it cannot replace the role of educators.

**Лаура Зарбалиева**

**Резюме**

**ПРИМЕНЕНИЕ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В ОБУЧЕНИИ ИНОСТРАННЫМ ЯЗЫКАМ: СОЗДАНИЕ УЧЕБНОГО МАТЕРИАЛА ПО ИНДОНЕЗИЙСКОМУ ЯЗЫКУ С ПОМОЩЬЮ ЧАТБОТА *ChatGPT***

Интеграция ChatGPT – широко признанного средства искусственного интеллекта (ИИ) в преподавание иностранных языков открывает новую главу в педагогической практике. Его возможности в создании учебных материалов исключительно обширны. Поэтому современным педагогам необходимо ознакомиться с огромным потенциалом ИИ. В то же время важно признать присущие этим технологиям и ограничения.

Преимущества и недостатки чат-бота ChatGPT можно представить следующим образом: он обладает широкой доступностью, помогает преподавателям экономить время, поддерживает множество языков и выполняет запросы с высокой точностью. Тем не менее, он может и не справляться с некоторыми задачами, включая те, которые предлагает сам. Поэтому при создании учебных материалов не следует полностью полагаться на него. Педагоги должны продолжать контролировать и оценивать результаты, которые генерирует ИИ.

Непрерывное развитие технологий предполагает, что ChatGPT и аналогичные средства станут более точными и надежными. Педагогические преимущества ChatGPT очевидны, однако несмотря на его значительную помощь, ИИ не может заменить учителя.

*Rəyçi: dos. K.Hacıyeva*